Üç nöqtə ● 21 fevral 2019 ● № 035 (4422) ●

PRİZMA

# ABŞ-da xərçəngə qarşı mübarizə aparan azərbaycanlı cərrah



**CİDDİ,** dərin zəkalı, iradəli və nikbin olan bu xanımı dinlədikcə sevinirdim. Sevinirdim ki, uzaq Amerikada belə bir soydaşımız var. Qarşısına qoyduğu məqsədlərə doğru addım-addım irəliləyib, elmdə yüksələ bilib...

Yenicə ana olub, başı əkiz övladlarına qarışıb…

Haqqında söhbət açdığım İradə xanım İbrahimzadə cərrahdır, öz sahəsini mükəmməl bilir…

…Atası Tofiq İbrahimzadə informatika üzrə alimdir. Azərbaycan Neft və Sənaye Universitetinin professorudur. Anası Leyla Əliyeva uzun illər həmin elm ocağında müəllim işləyib.

Ömür-gün yoldaşı Mübariz Priyev Kolorado ştatında bizneslə məşğuldur, özəl şirkəti var. Ailədə yeni dünyaya gəlmiş əkiz oğlan böyüyür - Ömər və Əmir…

İradə xanım Bakıda dünyaya gəlib. 1995-ci ildə 6 nömrəli mətəbdə orta təhsilini başa vuraraq Azərbaycan Tibb Universitetinə qəbul olunub. 2001-ci ildə oranı bitirərək bir il onkoloji dispanserdə ankoloq-cərrah kimi internatura keçib. 2003-2006-cı illərdə Mərkəzi Klinik Xəstəxanasında ümumi cərrah işləyib. Arada bir il Türkiyənin Qazi Universitetinin cərrahiyə şöbəsində təcrübədə olub.

2006-cı ildə Kanadanın Toronto Universitetinin doktoranturasına qəbul olunub. 2010-cu ilədək orada tam təqaüdlə təhsil alaraq, "xərçəng farmoko genetikası" üzrə elmi iş müdafiə edib və PhD alimlik dərəcəsinə yiyələnib. Həmin il "post doc." təqaüdü ilə ABŞ-ın Minesota ştatının məşhur Mayo Klinikasına dəvət alıb və Kanadadan ABŞ-a köçüb. İki il burada elmi tədqiqatla məşğul olub. 2012-ci ildə Arizona Universitetinin cərrahiyə fakültəsinin dəvəti ilə üç il bu elm ocağında professor kimi çalışıb.

2015-ci ildən indiyədək Kolorado Universitetinin Cərrahiyə şöbəsində onkoloq-cərrah işləyir. Bacarıqlı, nec… deyərlər, əli yüngül cərrah kimi tanınır…

…Arzulayır ki, gələcəkdə böyük bi… tibb mərkəzi açıb, orada elmi tədqiqatlarını davam etdirsin. Bəşəriyyətin bə… ları olan xərçəngin müalicə üsulların… tapmaq istəyir…

Bütün bunlarla yanaşı, 2007-ci ildə… idmanın avarçəkmə növü ilə peşəka… səviyyədə məşğul olur. İndiyədək 9 qı… zıl medal qazanıb. Həttа ictimai iş kimi Minisota ştatında yaşayarkən, bir müd… dət məşqçi də olub…

Deyir ki, Azərbaycana hər il vali… deynlərini ziyarət etməyə gedir: “Ölkə… mizin inkişafı məni də sevindirir...".

Klassik musiqimizdən zövq alır. Xü… susən də Rəşid Behbudovu dinləmək… dən yorulmur. Koloradoda azərbaycan… lılar çox azdır. Bayramlarda bir aray… gəlib ünsiyyətdə olurlar, tez-tez bir-bi… rinə qonaq gedirlər. Bu mehribanlı… adamda qürur hissi doğurur…

Bu alicənab, uzaqgörən, ixtisasın… dərindən bilən, yeni ana olmuş xanım haqqında bildiklərimi sizinlə bölüşmək… dən məmnunam.

Onun həm ana kimi və həm də cər… rah kimi bütün arzularına çatmasın… diləyirəm…

***Elman Eldaroğlu***
***ABŞ, Miçiqan***